## *20 Yanvar bayatıları*

Həmişə şən olmuşam,
Qəmə düşmən olmuşam.
20 Yanvar dərdilə
Gen olmuşam.

20 Yanvar gecəsi,
Tank səsi, güllə səsi...
Qanlı şənbəyə döndü,
Bakının hər küçəsi.

Mərdi qoy mərd qorusun,
Olmasın sərt, qorusun!
Silahsıza əl qatan,
Görüm, əlin qurusun !

Titrətməli dünyanı,
Ürpətməli dünyanı,-
20 Yanvar ünvanlı
Şəhidlər xiyabanı.

Dağ var, dağlar dağıdır,
Duman onu dağıdır.
20 Yanvarin dağı,
Tarixlərin dağıdır.

20 Yanvar elə gün –
Yasaq oldu toy-düyün!
Xalqım hec vaxt unutmaz,
O günündə gördüyün!

Buymuş xalqımın baxtı?!
Su yerinə qan axdı.
Şükr edirəm iblisin,
Virandı tacı-taxtı.

Bu dünyadır şahidi:
El unutmaz igidi!
Behiştin sakinidir
20 Yanvar şəhidi.

Şəhidlərim, əzizim,
Aydan, sudan təmizim!
Siz palıd köküsünüz,
Vüqarlı nəslimizin!

20 Yanvar şəhidi,
Hər bir zaman diridir.
Ulu Azərbaycanın,
Qələbə orderidir!

Ziya H. 20 Yanvar bayatıları // Bakı. – 1994. – 20 yanvar.